No: 04 2026
https://doi.org/10.64400/ea26-04-03
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ELEKTRON ÜNSİYYƏTDƏ SİFƏTİN ÇOXALTMA DƏRƏCƏSİNİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

**Nigar NAĞIYEVA**
AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* nagiyevanigar8@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 02.11.2026*
*Nəşr edilmə tarixi: 30.11.2026*

**AÇAR SÖZLƏR:**
elektron ünsiyyət, ekspressivlik, sosial şəbəkələr, qrammatik norma, sifətin dərəcələri, internet

**XÜLASƏ**
Məqalədə müasir kommunikasiya mühitində, xüsusilə internet diskursunda dil oyunu və qeyri-standart formaların istifadəsi araşdırılır. Sosial şəbəkələr, forumlar və digər onlayn platformalar müasir dilin inkişafında mühüm rol oynayır və burada dil vahidlərinin ənənəvi normativ çərçivədən kənara çıxması halları daha çox müşahidə olunur. Araşdırma göstərir ki, istifadəçilər kommunikasiya prosesində yalnız informasiya ötürmək məqsədi daşımırlar, eyni zamanda emosional təsir yaratmaq, diqqəti cəlb etmək və fərdi üslubu formalaşdırmaq üçün müxtəlif ekspressiv vasitələrdən istifadə edirlər. Təhlil nəticəsində qeyri-standart formaların müəyyən kommunikativ məqsədlərə xidmət edən sistemli bir hadisə olduğu müəyyən edilmişdir. Bu formalar dil oyunu elementləri kimi çıxış edərək nitqin ekspressivliyini artırır, mətnin emosional çalarını gücləndirir və ünsiyyətin təsir gücünü artırır. Xüsusilə hiperbolik ifadələr, sifətlərin çoxaltma dərəcəsi və reduplikativ formalar internet dilində geniş yayılmışdır və onlar danışanın subyektiv münasibətini daha qabarıq şəkildə ifadə etməyə imkan verir. Bundan əlavə tədqiqat göstərir ki, internet ünsiyyəti dil yaradıcılığının aktiv sahələrindən biridir. Burada istifadəçilər normativ qrammatikadan kənara çıxaraq özləri yeni ifadə formaları yaradır və mövcud dil vahidlərinə yeni funksional çalarlar əlavə edirlər. Bu proses müasir dilin dinamik inkişafını və dəyişkən xarakterini bird aha təsdiqləmiş olur. Nəticə etibarilə, elektron ünsiyyət müasir dildə qeyri-standart formaların funksional istifadəsini gücləndirən mühüm bir mühit kimi çıxış edir və dilin ekspressiv, yaradıcı və kommunikativ potensialının genişlənməsinə şərait yaradır.

## GİRİŞ

Müasir informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı insanların ünsiyyət formasını əhəmiyyətli dərəcədə dəyişdirmiş, elektron kommunikasiya gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Sosial şəbəkələr, ani mesajlaşma proqramları, forumlar və digər rəqəmsal platformalar yalnız yeni ünsiyyət mühiti yaratmamış, eyni zamanda dilin bütün səviyyələrinə, xüsusilə leksik, qrammatik və üslubi sisteminə təsir göstərmişdir. Bu mühitdə yazılı nitq şifahi nitqin xüsusiyyətlərini qismən mənimsəyərək daha dinamik, emosional və ekspressiv xarakter almışdır. Məhz bu səbəbdən elektron ünsiyyət müasir dilçiliyin ən aktual tədqiqat istiqamətlərindən biri hesab edilir (Crystal, 2021; Androutsopoulos, 2023).

Elektron ünsiyyətin əsas xüsusiyyətlərindən biri informasiyanın qısa müddətdə, operativ və emosional şəkildə çatdırılmasıdır. İstifadəçilər fikirlərini daha təsirli ifadə etmək məqsədilə müxtəlif dil vasitələrindən – abbreviaturalardan, emojilərdən, qrafik simvollardan, hərf təkrarlarından, sintaktik ixtisarlardan və müxtəlif qrammatik vasitələrdən geniş istifadə edirlər. Bu xüsusiyyətlər dil vahidlərinin işlənmə tezliyinə və funksional imkanlarına da təsir göstərir. Nəticədə, ənənəvi yazı normaları müəyyən qədər transformasiyaya uğrayır, yeni ifadə üsulları formalaşır və dil vahidləri yeni kommunikativ funksiyalar qazanır.

Elektron kommunikasiya mühitində emosiyaların və qiymətləndirmənin ifadəsi xüsusi əhəmiyyət daşıyır. Üz-üzə ünsiyyətdə mimika, jest, intonasiya kimi qeyri-verbal vasitələrlə ötürülən emosional məna rəqəmsal yazışmalarda əsasən dil vasitələri hesabına ifadə olunur. Bu baxımdan sifətin dərəcə kateqoriyası, xüsusilə çoxaltma dərəcəsi istifadəçilərin emosional münasibətini, qiymətləndirməsini və ekspressivliyini ifadə edən mühüm qrammatik vasitələrdən biri kimi çıxış edir. Elektron ünsiyyətdə bu dərəcənin işlənməsi yalnız ədəbi dil normaları ilə məhdudlaşmır, həm də müxtəlif qrafik və üslubi üsullarla müşayiət olunur.

Azərbaycan dilində sifətin çoxaltma dərəcəsi fonetik, morfoloji və sintaktik üsullarla ifadə olunur və elektron ünsiyyətdə bu vasitələrə əlavə olaraq müxtəlif qrafik və multimodal vasitələrdən də istifadə edilir. Beləliklə, ənənəvi çoxaltma dərəcəsi qrafik-ekspressiv vasitələrlə tamamlanaraq yeni funksional çalarlar qazanır.

Elektron ünsiyyətdə çoxaltma dərəcəsinin işlənməsi yalnız qrammatik hadisə deyil, həm də praqmatik və kommunikativ xüsusiyyətlərə malik dil faktıdır. Onun seçilməsi istifadəçinin emosional vəziyyətindən, ünsiyyətin məqsədindən, kommunikasiya platformasından, həmsöhbətlər arasındakı münasibətdən və diskursun xarakterindən asılı olaraq dəyişir. Xüsusilə sosial şəbəkələrdə və ani mesajlaşma proqramlarında ekspressivlik və subyektiv qiymətləndirmə ön plana çıxdığından, sifətin çoxaltma dərəcəsi ən fəal istifadə olunan qrammatik vasitələrdən birinə çevrilmişdir.

Məqalənin məqsədi elektron ünsiyyət mühitində Azərbaycan dilində sifətin çoxaltma dərəcəsinin işlənmə xüsusiyyətlərini müəyyənləşdirmək, onun ifadə vasitələrini, funksional-semantik xüsusiyyətlərini və kommunikativ rolunu araşdırmaqdır. Tədqiqat çərçivəsində elektron yazışmalarda rast gəlinən ənənəvi və qeyri-ənənəvi çoxaltma formaları təhlil edilir, onların ekspressivlik yaratmaq imkanları, qrafik vasitələrlə qarşılıqlı əlaqəsi və müasir internet diskursunda tutduğu yer qiymətləndirilir. Bu baxımdan mövzu Azərbaycan dilində elektron kommunikasiya dilinin qrammatik xüsusiyyətlərinin öyrənilməsi və rəqəmsal diskursun dil sisteminə təsirinin müəyyənləşdirilməsi baxımından elmi əhəmiyyət kəsb edir.

## MATERİAL VƏ METODLAR

Tədqiqat materialları internet diskursundan toplanmış nümunələr əsasında təsviri, müşahidə, kontent təhlili və funksional-semantik təhlil metodlarından istifadə edilərək formalaşdırılmışdır. Məlumatlar Facebook, Instagram, TikTok və Telegram platformalarında Azərbaycan dilində paylaşılmış açıq mətnlər, şərhlər və istifadəçi paylaşımlarından əldə edilmişdir. Bu sosial şəbəkələr geniş istifadəçi auditoriyasına malik olması və qeyri-rəsmi ünsiyyət nümunələrinin intensiv şəkildə müşahidə edilməsi səbəbindən seçilmişdir.

Dil materiallarının seçilməsi zamanı mətnlərin Azərbaycan dilində olması, sifətin çoxaltma dərəcəsini və ya onun qeyri-standart variantlarını əks etdirməsi, açıq girişli mənbələrdən götürülməsi və kommunikativ məqsədlə istifadə olunması əsas meyar kimi qəbul edilmişdir. Toplanmış nümunələr struktur və semantik xüsusiyyətlərinə görə qruplaşdırılmış, onların internet ünsiyyətində ekspressivlik yaratmaq, emosional münasibəti ifadə etmək və diqqəti cəlb etmək funksiyaları təhlil edilmişdir.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Onlayn diskursda qeyri-standart formalar və dil oyunu elementləri ekspressivlik və fərdi üslub yaratmaq üçün geniş istifadə olunur (Dynel, 2021; Thurlow, 2022). Elektron ünsiyyətdə məhsuldar şəkildə istifadə olunan nitq vahidlərindən biri də keyfiyyət bildirən sifətlərdir. Keyfiyyət bildirən sifətlər müxtəlif intensivlik dərəcələri ilə təzahür edə bilən və digər anlayışlarla motivasiya olunmayan əlamətlərin birbaşa adlarıdır. Bu qrupa aid sifətlərlə ifadə olunan xüsusiyyət və keyfiyyətlər insan tərəfindən bilavasitə, əsasən, hiss orqanları vasitəsilə qavranılır. Belə əlamətlərə rəng, məkan və zaman xüsusiyyətləri, fiziki keyfiyyətlər, xarakter cizgiləri, emosional və psixoloji xüsusiyyətlər daxildir.

Keyfiyyət sifətləri digər sifət qruplarından bir sıra qrammatik xüsusiyyətləri ilə fərqlənir. Onlar tam və qısa formaya malik olur, müqayisə və üstünlük dərəcələri yarada bilir, dərəcə zərfləri ilə birləşə bilir, həmçinin antonim və sinonim münasibətlərə daxil olur. Bundan əlavə, bu sifətlər yüksək söz yaradıcılığı potensialına malikdir və müxtəlif ekspressiv, qiymətləndirici və emosional çalarlı formaların yaranmasında fəal iştirak edir. Məhz bu xüsusiyyətlər keyfiyyət sifətlərinin internet ünsiyyətində geniş yayılmasına və istifadəçilərin emosional münasibətlərinin ifadəsində mühüm rol oynaması üçün münbit şərait yaradır.

Sifəti digər nitq hissələrindən fərqləndirən əsas qrammatik xüsusiyyətlərdən biri onun dərəcə kateqoriyasına malik olmasıdır. Dərəcə kateqoriyası əşyanın və ya hadisənin əlamətinin müxtəlif

intensivlik səviyyələrində təzahürünü ifadə edir. Əlamət normal, normadan az və ya normadan çox səviyyədə özünü göstərə bilər. Bu xüsusiyyətə əsasən Azərbaycan dilində sifətin üç dərəcəsi fərqləndirilir: adi dərəcə, azaltma dərəcəsi və çoxaltma dərəcəsi.

Adi dərəcə əlamətin heç bir əlavə məna çaları olmadan, adi şəkildə ifadəsini bildirir. Azaltma dərəcəsi əlamətin normadan zəif və ya natamam şəkildə təzahür etdiyini göstərir. Çoxaltma dərəcəsi isə əlamətin və ya keyfiyyətin adi səviyyədən daha yüksək dərəcədə olduğunu ifadə edir. Bu dərəcə vasitəsilə danışan şəxs əşya və ya hadisənin müəyyən xüsusiyyətini xüsusi olaraq vurğulayır, onun intensivliyini artırır və qiymətləndirici münasibətini ifadə edir.

Sifətin çoxaltma dərəcəsi əlamətin, keyfiyyətin adi dərəcəsindən artıq olduğunu bildirir. Bu dərəcə əlamət və keyfiyyətin ən yüksək səviyyəsini göstərməyə xidmət etsə də, maddi aləmdə olduğu kimi, əlamət və keyfiyyətlərin də sərhədləri nisbi xarakter daşıdığından "son həddˮ anlayışı mütləq deyil, şərti hesab olunur (Kazımov, 2004: 121). Buna görə də çoxaltma dərəcəsi əksər hallarda danışanın subyektiv qiymətləndirməsini və obyektə münasibətini əks etdirir.

Müasir internet ünsiyyətində çoxaltma dərəcəli sifətlər xüsusi fəallıq nümayiş etdirir. Sosial media platformaları dil yaradıcılığını stimullaşdıraraq istifadəçilərin normadankənar ifadə formaları yaratmasına imkan verir (Page, 2023). Elektron kommunikasiya mühitində istifadəçilər öz emosiya və təəccüblərini, heyranlıqlarını və ya mənfi münasibətlərini daha təsirli şəkildə çatdırmaq üçün bu formalardan geniş istifadə edirlər. Nəticədə çoxaltma dərəcəsi yalnız qrammatik kateqoriya kimi deyil, həm də ekspressivlik və qiymətləndirmə vasitəsi kimi çıxış edir. Beləliklə, internet dili müasir dövrdə həm dəyişkən, həm də yüksək ekspressivlik daşıyan kommunikativ sistem kimi çıxış edir (Baron, 2021; Zappavigna, 2022).

Çoxaltma dərəcəsi əlamətin adi haldan daha yüksək intensivlikdə olduğunu ifadə edir və sifətin qrammatik kateqoriyaları arasında ekspressivlik baxımından xüsusi yer tutur. Azərbaycan dilində çoxaltma dərəcəsi üç əsas üsulla formalaşır: fonetik, morfoloji və sintaktik.

Fonetik üsulla çoxaltma dərəcəsi sifətin ilk hecasına m, p, r, s samitlərindən birinin artırılması və bunun nəticəsində sözün fonetik tərkibinin dəyişdirilməsi yolu ilə yaranır. Məsələn: *qıpqırmızı, gömgöy, yamyaşıl, tərtəmiz* və s. Bu üsul əlamətin yüksək intensivlikdə və ekspressiv şəkildə ifadə olunmasına xidmət edir.

Morfoloji üsulla çoxaltma dərəcəsi sifətin əsas formasına müvafiq şəkilçilərin artırılması ilə formalaşır. Məsələn, -ca[2] şəkilçisinin artırılması ilə *xırdaca, göyçəkcə* və s. kimi formalar yaranır. Bu cür formalar əlamətin daha güclü, emosional və təsirli şəkildə ifadəsinə xidmət edir.

Sintaktik üsulla çoxaltma dərəcəsi isə sifətin əvvəlinə intensivlik bildirən sözlərin artırılması ilə yaranır. Bu vasitələrə *ən, lap, çox, daha, olduqca* kimi ədatlar, həmçinin *düm* hissəciyi və *zil, tünd* kimi leksik gücləndirici vasitələr daxildir. Nəticədə *ən yaxşı, çox gözəl, dümağ, zil qara, tünd-göy, olduqca şirin* kimi sifətlər formalaşır. Bu üsul sifətin semantik gücünü artırmaqla yanaşı, danışanın qiymətləndirici münasibətini də daha aydın şəkildə ortaya çıxarmış olur.

Müasir elektron ünsiyyətində çoxaltma dərəcəsində olan sifətlərin istifadəsi xüsusilə geniş yayılmışdır. Sosial media platformaları, forumlar və digər onlayn kommunikasiya mühitləri bu formaların fəal şəkildə işlədildiyi əsas sahələrdəndir. Elektron diskursda istifadəçilər emosional təsiri gücləndirmək, ifadənin ekspressivliyini artırmaq və diqqəti daha çox cəlb etmək məqsədilə sifətin çoxaltma dərəcəsinə tez-tez müraciət edirlər (Mahmudov, 2020).

Onlayn danışıq dilinin (sosial media, forumlar və digər rəqəmsal platformalar) materiallarından istifadə etməklə müasir nitqdə çoxaltma formalarının əmələ gəlməsi və funksionallığı təhlil olunur. Təhlil bu formaların əsas yayılma sahələrini, kommunikativ funksiyalarını, eləcə də konkret ifadələrdə reallaşan semantik və qrammatik xüsusiyyətlərini müəyyənləşdirməyi əhatə edir. Bu yanaşma internet dilində ekspressiv vasitələrin rolunu və inkişaf tendensiyalarını daha dərindən anlamağa imkan verir.

Sifətin çoxaltma dərəcəsi elektron ünsiyyət dilində emosiyaların ifadəsi, müxtəlif situasiyaların daha təsirli təqdim olunması, eləcə də komik və ironik üslubun yaradılması məqsədilə geniş şəkildə istifadə olunur. Çoxaltma dərəcəsinin yaratdığı hiperbolik qiymətləndirmə danışıqda hadisə və ya obyektlərin daha intensiv və təsirli şəkildə təqdim olunmasına imkan yaradır. Bu xüsusiyyət nitqin

ekspressivliyini artırır, danışanın emosional münasibətini və subyektiv mövqeyini daha aydın şəkildə ifadə etməsinə şərait yaradır (Fərəcova, 2020: 377).

Hiperbolik ifadələr gündəlik ünsiyyətdə geniş yayılmış dil vasitələrindən biridir. Belə ifadələr emosional təsirin gücləndirilməsi, qiymətləndirmənin daha qabarıq şəkildə çatdırılması və nitqin təsirlilik dərəcəsinin artırılması funksiyalarını yerinə yetirir.

Bu baxımdan çoxaltma dərəcəsi yalnız qrammatik kateqoriya deyil, həm də kommunikativ-praqmatik vasitə kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, elektron ünsiyyətdə çoxaltma dərəcəli sifətlər əksər hallarda normativ ədəbi dildən kənar, qeyri-rəsmi formada özünü göstərir. Bu zaman xüsusilə sifətlərin tərkibindəki səslərin uzadılması formalarına tez-tez rast gəlinir. Belə ifadələr emosiyanın daha qabarıq şəkildə ötürülməsinə, danışanın hisslərinin vizual və yazılı formada intensivləşdirilməsinə xidmət edir və internet ünsiyyətinin ekspressiv xüsusiyyətlərini daha da gücləndirir.

Fikrimizə sübut olaraq bir neçə nümunəyə nəzər salaq:

*Əli əmi çooox yaxşı insandır; Bu fikir laap əəla idi; Sən mənim əən yaxın dostumsan!; SupeerSən; Bu qız çooox şiriindidə.*

Göstərilən nümunələrdə sifətin çoxaltma dərəcəsinin sintaktik üsulunda iştirak edən ədatlarda da sait uzadılmasına rast gəlirik.

Uzatma və fonetik gücləndirmə vasitələrindən əlavə, elektron ünsiyyət mühitində sözün semantik və praqmatik təsirini artırmaq məqsədilə onun baş hərflərlə yazılması halları da geniş şəkildə müşahidə olunur. Bu yazı forması internet diskursunda xüsusi ekspressiv vasitə kimi çıxış edir və əsasən emosiyanın gücləndirilməsi, diqqətin cəlb edilməsi və müəyyən informasiyanın vurğulanması funksiyasını yerinə yetirir. Məsələn: *ƏLAsan da; ƏLAÇI oldum!!!; İDEAL SEÇİMDİR! və s.*

Elektron mühitdə baş hərflərlə yazı həm də diqqəti cəlb etmə strategiyası kimi çıxış edir. Sosial şəbəkələrdə və mesajlaşma platformalarında istifadəçilər əsas fikri fərqləndirmək və oxucunun diqqətini konkret sözə və ya cümləyə cəlb etmək üçün bu üsuldan istifadə edirlər. Beləliklə, mətnin vizual strukturu da kommunikativ funksiyanın bir hissəsinə çevrilir.

Qeyd etmək lazımdır ki, bu fenomen normativ yazı qaydalarından kənara çıxsa da, internet dilində artıq funksional bir üslubi vasitə kimi formalaşmışdır. Nəticə etibarilə, baş hərflərlə yazı müasir elektron diskursda ekspressivliyin artırılması, emosional yükün gücləndirilməsi və kommunikativ təsirin effektivləşdirilməsi üçün mühüm vasitələrdən biri hesab olunur.

Keyfiyyət sifətlərinin sintetik formalarından istifadə bir çox hallarda müəyyən situasiyaya emosional və qiymətləndirici münasibətin ifadə vasitəsi kimi çıxış edir. Bu cür formalar danışanın və ya yazanın subyektiv mövqeyini gücləndirərək ifadənin ekspressivliyini artırır və mətnin kommunikativ təsir gücünü yüksəldir.

Diskursda rast gəlinən daha bir hal geminasiya, yəni fonetikada samit səsin ikiləşməsidir. Bu dil hadisəsi yazılı internet nitqində normativ orfoqrafik qaydalardan kənara çıxaraq sözün ekspressiv və emosional təsirini artırmaq məqsədi daşıyır. Bu fenomenin əsas funksiyası sözün semantik yükünü gücləndirmək, emosiyanı daha qabarıq ifadə etmək və danışanın subyektiv münasibətini vurğulamaqdır. Samitlərin ikiləşdirilməsi nəticəsində sözün tələffüzündə uzanma effekti yaranır və bu, yazılı formada sanki səs intonasiyasının vizual əksi kimi çıxış edir. Elektron ünsiyyətdə geminasiya əsasən ekspressivliyin artırılması, yəni fikrin qüvvətləndirilməsi məqsədilə istifadə olunur. Məsələn: *Qəşşəng*!; *Lapp gözəl; supper, gözzəl*.

Qeyd etmək lazımdır ki, bu tip formalar ədəbi dil normasından kənara çıxmış olsa da, müasir elektron diskursda funksional xarakter qazanmışdır. Onlar yazılı ünsiyyətdə şifahi nitqin intonasiya xüsusiyyətlərini kompensasiya edir və kommunikativ təsiri gücləndirir. Nəticə etibarilə, geminasiya internet dilinin ekspressiv imkanlarını genişləndirən mühüm fonetik-üslubi vasitələrdən biri hesab olunur.

"*Rəsmdən mənə baxan gözlər canlıdan daha canlı idi*". Bu nümunədə dil oyunu vasitəsi kimi canlı sözünün gücləndirilməsindən istifadə olunub. Daha bir nümunədə: "*Ən zəngin və ən subay*" ifadəsi işlənmişdir. Buradakı keyfiyyət bildirən "subay" sifətinin qeyri-standart formada işlənməsi eyni kontekstdə işlənən "zəngin" sifətinin forması ilə motivasiya olunur.

Həmsöhbətlərin nitqdə yaradıcı fərdiliklərini ifadə etmək istəyi həm standart qrammatik normalardan kənaraçıxmaların, həm də qeyri-standart dil formalarından şüurlu şəkildə istifadə olunmasının genişlənməsinə səbəb olur. Bu cür dil davranışı nəticəsində kommunikasiya prosesində dil oyunu elementləri formalaşır və inkişaf edir.

Belə yanaşma danışanların yalnız informasiya ötürmək deyil, eyni zamanda öz üslubunu fərdiləşdirmək, emosional və ekspressiv təsir gücünü artırmaq məqsədi daşıdığını göstərir. Nəticədə normativ sistemdən kənar dil vahidlərinin istifadəsi təsadüfi xarakter daşımır, əksinə, kommunikativ məqsədlərlə əlaqəli şüurlu seçim kimi çıxış edir. Bu isə müasir diskursda dil yaradıcılığının və üslubi variasiyanın artdığını təsdiqləyir.

Həmsöhbətlərin nitqdə yaradıcı fərdiliklərini ifadə etmək istəyi həm standart qrammatik normalardan kənaraçıxmaların, həm də qeyri-standart dil formalarından şüurlu şəkildə istifadə olunmasının genişlənməsinə səbəb olur. Bu cür dil davranışı nəticəsində kommunikasiya prosesində dil oyunu elementləri formalaşır və inkişaf edir.

Müasir Azərbaycan danışıq dili xüsusilə sosial şəbəkə və elektron ünsiyyət mühitində ingilis dilindən keçmiş sifətlərin aktiv istifadəsi ilə xarakterizə olunur. Bu hadisə əsasən kod dəyişmə və dil qarışması prosesləri ilə bağlıdır. İngilis mənşəli sifətlər çox zaman emosional ekspressivlik yaratmaq, lakonikliyi təmin etmək və müasir üslub effekti formalaşdırmaq məqsədilə istifadə edilir.

Bu sifətlər Azərbaycan cümlə quruluşuna uyğunlaşdırılaraq ya olduğu kimi saxlanılır, ya da azərbaycanlaşdırılmış fonetik formada işlədilir. İngilis mənşəli sifətlərin Azərbaycan cümlələrində istifadəsi müasir gənclərin dili və internet diskursunun əsas xüsusiyyətlərindən biridir. Bu hadisə dilin qloballaşması, media təsiri və sosial şəbəkə kommunikasiya formalarının yayılması ilə bağlıdır. Belə sifətlər əsasən ekspressivlik, müasirlik effekti və emosional təsir yaratmaq funksiyasını daşıyır. Azərbaycan danışıq və internet dilində ingilis sifətlərinin istifadəsi kod qarışması nəticəsində formalaşan ekspressiv bir fenomen kimi çıxış edir. Bu proses dilin dinamik inkişafını göstərir və müasir kommunikasiya mühitində dil vahidlərinin sərhədlərinin elastik olduğunu təsdiqləyir. Nümunə olaraq bu misalları göstərmək olar: *Bu film çox interesting idi; Sənin ideyan çox creativedir; O, çox smart insandır; Bu post çox funny alınıb; Atmosfer çox cool idi. Və yaxud: sooo cute; çox nice vibe var burda; tam relax mood; super happy oldum; ən bad günüm idi*. Qeyd olunan nümunələr müasir danışıq və internet dilində müşahidə olunan kod qarışmasını göstərir. Bununla belə, düşünürük ki, Azərbaycan dilində qarşılığı olan sözlərin yerinə xarici mənşəli sözlərin işlədilməsi ədəbi dil normaları və dilimizin qorunması baxımından qəbulolunan hal kimi təqdim edilməməlidir.

## NƏTİCƏ

Beləliklə, aparılan təhlillər göstərir ki, müasir ünsiyyət mühitində, xüsusilə də internet diskursunda normativ qrammatikadan kənar formaların istifadəsi sistemsiz və təsadüfi bir hal deyil, əksinə funksional xarakter daşıyır. Bu formalar, əsasən, ekspressivlik, emosional təsir və fərdi üslubun yaradılması məqsədilə istifadə olunur. Bütün bu halların nəticəsi olaraq, qeyri-standart dil vahidləri müasir nitqdə dil oyunu və yaradıcılıq mexanizmlərinin aktiv göstəricisi kimi çıxış edir və kommunikativ effektivliyin artırılmasına xidmət edir.

Əldə olunan nəticələr müasir Azərbaycan dilində elektron ünsiyyətin linqvistik xüsusiyyətlərinin daha dərindən öyrənilməsinə imkan yaradır. Tədqiqat internet diskursunda yaranan yeni ifadə vasitələrinin və qeyri-standart dil formalarının funksional xüsusiyyətlərini müəyyənləşdirməyə kömək edir. Bu isə gələcək araşdırmalar üçün nəzəri baza formalaşdıraraq rəqəmsal kommunikasiya dilinin inkişaf meyillərinin izlənilməsinə şərait yaradır.

## ƏDƏBİYYATLAR

Androutsopoulos, J. (2023). Digital discourse and language change in online environments. Journal of Pragmatics, 190, 45–60.

Baron, N. S. (2021). How We Talk Online: The Language of Digital Communication. Oxford University Press.

Crystal, D. (2021). Language and the Internet (2nd ed.). Cambridge University Press.

Dynel, M. (2021). Internet humor and language play in digital communication. Linguistics and Education, 62, 100–115.
Fərəcova, S. (2020). "Qiymətləndirmə" konseptinə sosial-linqvistik baxış. *TÜRKLAD*, c. 4, № 2, s. 375–382
Kazımov, Q.Ş. (2004). Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Azpoliqraf LTD MMC, 496 s.
Mahmudov, M. (2020). SMS informasiya mübadiləsinin linqvistik özəllikləri. Bakı: Dilçilik araşdırmaları. Beynəlxalq Elmi Jurnal, №1 (yanvar-iyun), s.64-69
Page, R., Barton, D., Unger, J. W. (2023). Researching Language and Social Media. Routledge.
Thurlow, C., Mroczek, K. (2022). Digital Discourse: Language in the New Media. Oxford University Press.
Zappavigna, M. (2022). Searchable Talk: Hashtags and Social Media Metadiscourse. Bloomsbury.

## ABSTRACT

## FEATURES OF THE DEVELOPMENT OF THE INTENSIFICATION DEGREE OF ADJECTIVES IN ELECTRONIC COMMUNICATION

**Nigar Naghıyeva**
*Instutite of Linguistics named after Nasimi of ANAS, Baku, Azerbaijan*

The article examines the use of language games and non-standard forms in the modern communication environment, especially in Internet discourse. Social networks, forums and other online platforms play an important role in the development of modern language, and here cases of language units going beyond the traditional normative framework are more often observed. The study shows that users do not only aim to transmit information in the communication process, but also use various expressive means to create an emotional impact, attract attention and form an individual style. As a result of the analysis, it was determined that non-standard forms are not accidental, but, on the contrary, are a systematic phenomenon serving certain communicative goals. These forms, acting as elements of language games, increase the expressiveness of speech, enhance the emotional tone of the text and increase the impact of communication. In particular, hyperbolic expressions, degree of reduplicativeness of adjectives and reduplicative forms are widespread in Internet language and allow the speaker's subjective attitude to be expressed more clearly. In addition, the study shows that Internet communication is one of the active areas of language creativity. Here, users go beyond normative grammar and create new forms of expression themselves and add new functional shades to existing language units. This process once again confirms the dynamic development and changing nature of modern language. As a result, electronic communication acts as an important environment that enhances the functional use of non-standard forms in modern language and creates conditions for expanding the expressive, creative and communicative potential of language.

***Keywords:*** *electronic communication, expressiveness, social networks, grammatical norm, degrees of adjective, internet*

## РЕЗЮМЕ

## ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ ПРЕВОСХОДНОЙ СТЕПЕНИ ИМЕНИ ПРИЛАГАТЕЛЬНОГО В ЭЛЕКТРОННОЙ КОММУНИКАЦИИ

**Нигяр Нагиева**
*Институт Языкознания имени Насими НАНА, Баку, Азербайджан*

В статье рассматривается использование языковых игр и нестандартных форм в современной коммуникационной среде, особенно в интернет-дискурсе. Социальные сети, форумы и другие онлайн-платформы играют важную роль в развитии современного языка, и здесь чаще наблюдаются случаи языковых единиц, выходящих за рамки традиционной нормативной структуры. Исследование показывает, что пользователи стремятся не только передавать информацию в процессе общения, но и использовать различные выразительные

средства для создания эмоционального воздействия, привлечения внимания и формирования индивидуального стиля. В результате анализа установливается, что нестандартные формы не случайны, а, наоборот, являются систематическим явлением, служащим определенным коммуникативным целям. Эти формы, выступая в качестве элементов языковых игр, повышают выразительность речи, усиливают эмоциональный тон текста и увеличивают воздействие коммуникации. В частности, гиперболические выражения, степень редупликации прилагательных и редупликативные формы широко распространены в интернет-языке и позволяют более четко выразить субъективное отношение говорящего. Кроме того, исследование показывает, что интернет-коммуникация является одной из активных областей языкового творчества. Здесь пользователи выходят за рамки нормативной грамматики и сами создают новые формы выражения, добавляя новые функциональные оттенки к существующим языковым единицам. Этот процесс еще раз подтверждает динамичное развитие и изменчивую природу современного языка. В результате электронная коммуникация выступает важной средой, которая усиливает функциональное использование нестандартных форм в современном языке и создает условия для расширения выразительного, творческого и коммуникативного потенциала языка.

***Ключевые слова:*** *электронная коммуникация, выразительность, социальные сети, грамматическая норма, степени прилагательного, интернет*